# Arxeologiyamızın 8 Noyabr səhifəsi




**Azərbaycanın şanlı zəfər bayramı olan 8 Noyabr Vətəmizin bütövlüyünün təmin olunması, torpaqlarımızın işğaldan qurtarması uğrunda apardığımız siyasi, hərbi mübarizənin yekunudur. Zəfər bayramı respublikamızın siyasi, iqtisadi, mədəni və mənəvi həyatında mühüm dəyişikliklərin başlanmasının zəmini olmuşdur. Arxeologiya sahəsində isə 8 Noyabr yeni bir səhifə açmış oldu.**

Onilliklər boyu bir çox tarixi-arxeoloji və memarlıq abidələrimiz erməni vəhşiliyinin qurbanı olmuş, onların əksəriyyəti qismən və tamam dağıdılmış, qanunsuz arxeoloji qazıntılar aparılmışdır. Arxeoloji qazıntıların nəticələri isə bəzən xarici elmi nəşrlərdə ermənilərin "zəngin" tarixinin inciləri kimi qeyd olunmuşdur.

Əldə edilən faktlar əsasında təsdiq edilmişdir ki, işğal dövründə torpaqlarımızda ermənilər mütəmadi olaraq arxeoloji qazıntı işlərini həyata keçirmişlər. Erməni arxeoloqları əvvəlcə Azıxda belə təxribatlara başlamış və Azıx abidəsini dünyaya erməni abidəsi kimi tanıtmağa cəhd etmişlər. Hətta Azıxda arxeoloji tədqiqatlar aparmaq üçün beynəlxalq ekspedisiya da təşkil etməyə nail olmuşlar. Lakin Azərbaycan hökuməti o zaman bu addımı kəskin şəkildə pisləmiş və orada tədqiqatlar aparan xarici ölkə mütəxəssislərinin təmsilçiliklərinə etirazını bildirmişdir. Məlumdur ki, ilk dəfə Azıx mağarasında qazıntılar aparan arxeoloqlarımız azıxantropun qalıqlarını taparaq dünyaya sübut etmişlərdir ki, Azərbaycan öz təbii zənginliyi ilə qədim insanların yaşadığı ərazilərdən olmuşdur. Çox qürurverici faktdır ki, hazırda Azıx və Tağlar mağaralarında alimlərimiz kompleks arxeoloji tədqiqatlara başlamış və yalançı ideyalarla silahlanan erməni alimlərinin Azıxda apardıqları arxeoloji qazıntıların nəticələrini heç bir qanuni əsası olmayan təqiqatlar kimi dünya ictimaiyyətinə çatdırmaqdadırlar.

Mənfur ermənilər ərazilərimizin 20%-ni işğal etməklə kifayətlənməyərək keçən müddət ərzində bu ərazilərdəki maddi mədəniyyət abidələrimizi mənimsəməkdə davam etmiş və yalan dəlillərlə bu abidələrin onlara məxsusluğunu elan etmişlər. Müəyyən vaxtlarda Laçın rayonunda arxeoloji qazıntılar aparan erməni "tarixçiləri" burada xeyli abidələrimizi dağıtmış, zəngin arxeoloji materialları, o cümlədən tuncdan, qızıldan və dəmirdən hazırlanan bəzək əşyaları, saxsı qabları, silah nümunələrini talayaraq Ermənistan muzeylərinə göndərmişlər. Hazırda Ermənistanın tarix muzeylərinin stendlərini bəzəyən bu nadir və unikal materiallar Azərbaycanın qədim sakinlərinin yaratdığı maddi mədəniyyətinin nümunələridir. Ümumiyyətlə, Ermənistanın özündə - yeni tarixi Azərbaycan torpaqlarında arxeoloji qazıntılar zamanı tapılan bütün materiallar əslində xalqımızın tarixi keçmişidir. Amma bu materiallar hazırda erməni saytlarında "yeni nəsil erməni arxeoloqları"nın araşdırmalarının nəticəsi olaraq qədim erməni abidələri və maddi mədəniyyət nümunələri kimi təqdim edilirlər. Əlimizdə daha bir barbarlıq nümunəsi də vardır. Belə ki, Ağdam rayonunda 20-dən çox kurqan abidəsini dağıdaraq, arxeoloji materialları sözün əsl mənasında qarət edən erməni arxeoloqları əldə etdikləri qənimətləri "Tiqranakert muzeyi"nə daşımış, burada erməni xalqının tarixi keçmişi kimi nümayiş etdirmişlər.

1950-ci illərin sonunda aparılan arxeoloji kəşfiyyat işləri nəticəsində müəyyən edilmişdir ki, indiki Ağ-



dam-Ağdərə şose yolunun yanında yerləşən Şahbulaq yaxınlığındakı Tərnəüt kəndinin qərb tərəfində (Pənahəli xanın qalasının ətrafında) yerləşən yaşayış yeri əslində qədim alban məskənlərinin biridir və burada erməni adından söhbət belə gedə bilməz. Buranın qədim alban yaşayış yeri olması ilə bağlı hətta XIX əsrdə bu yerlərdə olan erməni müəllifləri də məlumat vermişdir. Sonralar S.T.Yeremyan da bununla razılaşmışdır. Əllərinə məqam düşən ermənilər işğal dövründə guya sovet dövründəki "tarixi ədalətsizliyi" bərpa edərək buraya "qədim erməni şəhəri Tiqranakert" adını vermiş, eyni adda muzey yaradaraq, Şahbulaqda istirahət guşəsi və qədim alban şəhər yerində arxeopark yaratmışlar. Hazırda Arxeologiya və Antropologiya İnstitututnun təşkil etdiyi ekspedisiya Şahbulaq və ətrafında irimiqyaslı arxeoloji işlər aparmaqdadır. Ağdamın İmarət kompeksində aparılan arxeoloji tədqiqatların yekunu isə burada gözəl bir arxeoparkın yaradılması ilə nəticələnmişdir.

Xocalı ərazisində Xocalı nekropolunda erməni arxeoloqları bir neçə kurqan abidəsini texnika ilə dağıtmış, ən yaxşı halda zədələmişlər. İnstitutun təşkil etdiyi Xocalı arxeoloji ekspedisiyası artıq Xocalı nekropolunda kompleks arxeoloji tədqiqatlara start vermişdir.

Son illərdə xüsusilə Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında - Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən irimiqyaslı kompleks arxeoloji qazıntılar qədim tariximizin, mədəniyyətimizin, maddi mədəniyyət abidələrimizin hərtərəfli araşdırılmasına imkan yaratmışdır. Ənənəvi arxeoloji ekspedisiyalarla yanaşı fəaliyyəti dayanmış Qarabağ arxeoloji ekspedisiyasının çöl dəstələrinin işi yenidən bərpa edilmişdir. AMEA Arxeologiya və Antropologiya İnstitutunun rəhbərliyi indiki şəraitdə Qarabağ və Şərqi Zəngəzurda, xüsusilə Ermənistan respublikası ilə həmsərhəd rayonlarda arxeoloji qazıntıların həyata keçirilməsinə çox böyük önəm verir. Azərbaycan Respublikasında arxeoloji qazıntıların istiqamətlərini müəyyənləşdirən və əsaslı arxeoloji qazıntılar aparmaqla tariximizə dair yeni maddi sübutları ortaya qoyan bir elmi müəssisə olaraq AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu bu istiqamətdə mühüm işlər aparır. Çünki, son illərdə nəinki Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilmiş ərazilərindəki abidələrə, hətta Qazax, Ağstafa, Füzuli, Goranboy rayonlarının və Naxçıvan MR-nın arxeoloji abidələrinə qarşı iddialar geniş hal almışdır. Təbii ki, qonşularımızın məkrli məqsədi Azərbaycanın arxeoloji abidələrindən taladıqları materiallar əsasında özlərinə saxta tarix yaratmaqdır.

Tarixi abidələrimizə qarşı düşmən iddiaları hər zaman ən yaralı yerimiz olmuşdur. Xüsusilə son illərdə hərbi və diplomatik sahədəki ağır məğlubiyyətləri və geriləmələri ermənilləri daha da quduzlaşdırmışdır. İşğal etdikləri torpaqlarda müvəqqəti olduqlarını anlayan və bunu hər addımda başa düşən ermənilər abidələrimizi daha vəhşicəsinə dəyişdirməyə çalışmış, onlara əlavələr etmiş, arxeoloji materialları talayaraq Ermənistanın tarix muzeylərinə daşımış, dəyişdirə və saxtalaşdıra bilmədikləri abidələri isə yerindəcə məhv etmişlər. Onların məqsədi bizim minilliklərlə yaşı ölçülən arxeoloji abidələrimizə sahib çıxmaq, Azərbaycan xalqının bu əraziyə gəlmə olduğunu və heç bir özünəməxsus arxeoloji abidəyə malik olmadıqlarını sübuta yetirmək istəyirlər və bunun üçün bütün vasitələrdən istifadə edirlər.

Bütün bu kimi hallara qarşı tutarlı cavab vermək, bu sahədə erməni birliklərinin informasiya imkanlarını zəiflətmək, arxeoloji abidələrimizin tədqiq və təbliğini daha da genişləndirmək üçün yeni layihələrin gerçəkləşdirilməsi daim gündəlikdə durmalıdır. Məqsəd Azərbaycanın xüsusilə Ermənistanla həmsərhəd olan rayonlarında mövcud olan qədim abidələrimizi olduğu kimi, əsl tarixi adı ilə, əsl tarixi yaşı ilə ilk öncə Azərbaycan, daha sonra dünya ictimaiyyətinə çatdırmaq, qədim arxeoloji mədəniyyətlərimizin təhrifçiliyə uğradılan adlarını qorumaq, bu mədəniyyətləri yaradan xalqın maddi mədəni irsini sözün həqiqi mənasında dünya alimlərinə çatdırmaq, iddiaya məruz qalan abidələrimizi (əsasən də son illərdə ermənilərin diqqət yetirdiyi alban abidələrinin) tutarlı elmi dəlillərlə mühafizə etmək, çox böyük marağa səbəb olan tarixi-arxeoloji abidələrimizə turist axınının təşkilinə nail olmaq, bir sözlə arxeoturizm potensialı (nəzərə alsaq ki, bütün Qafqazda Azərbaycanın arxeoturizm potensialı daha çoxdur) olan mövcud abidələrimizin taleyini diqqətdə saxlamaq olmalıdır.

**Şamil NƏCƏFOV**
**AMEA Arxeologiya və Antropologiya İnstitutu, Xocalı arxeoloji ekspedisiyasının rəhbəri, tarix üzrə fəlsəfə doktoru, dosent**